# Bizim Rəhim müəllim

***Şəhid Zaur Əliyev adına Siyəzən Rayon Uşaq Yaradıcılıq Mərkəzinin nəzdində 2004-2005-ci tədris ilində 26 dərnək 52 qrupda fəaliyyətə başlayıb. 30 müəllimin rəhbərliyi ilə aparılan dərnəklər özlərində 780 şagirdi birləşdirir.***

***Həmin dərnəklər bunlardır: ədəbi-diyarşünaslıq, texniki-estetika, bədii özfəaliyyət, xalq çalğı alətləri, təsviri sənət, biçmə-tikmə, ingilis dili, tarix-diyarşünaslıq, şəhərdə cəhətləri təyin etmə, coğrafiya-diyarşünaslıq, gənc riyaziyyatçılar, bədii qiraət, gənc təbiətçilər, məktəb teatrı, foto, gənc qələmlər dərnəkləri. Siyəzən Uşaq Yaradıcılıq Mərkəzinin direktoru Zəminə Hüseynovadır.***

Söhbətimiz rayonun veteran mədəni-maarif xadimlərindən biri Rəhim Nəsbullayev haqqındadır. Siyəzən rayonunda hamı - böyük də, kiçik də onu "Bizim Rəhim müəllim" kimi tanıyır.

Ötən əsrin 70-ci illərində onun Siyəzən şəhər internat məktəbinin direktoru olduğunu bilirdik. Orta məktəbdə oxuduğumuz çağlarda... 80-ci illərin ikinci yarısında Siyəzən Broyler-Quşçuluq fabrikində hüquq məsləhətçisi işləyirdi. 9 ildir ki, Siyəzən Uşaq Yaradıcılıq Mərkəzinin metodistidir.

Rəhim Əmrulla oğlu Nəsbullayev 1927-ci ildə rayonun Köhnə Quşçu kəndində dünyaya göz açıb. Uşaqlıq illəri barlı-bərəkətli Xızı torpağında keçib. "Əzəldən səngərli-qalalı dağlar" qoynunda. Sərt, zəhmli dağlar... Bəlkə də, bu dağların sərtliyi, məğrurluğu, dəyanəti, həm də bir qədər zəhmliliyi hopub əslən dağlı Rəhim müəllimin təbiətinə, xarakterinə, simasına, çöhrəsinə. Portret cizgilərinə diqqət yetirsək, bu cəhətləri, xüsusiyyətləri oxuya bilərik.

Rəhim müəllim 7 illik təhsilini rayonun Ərziküş kənd məktəbində alıb.

Qazıməmmədli rayonunda gənc Rəhimin bacısı yaşayırdı. Bacısı 7 illik təhsilini bitirmiş qardaşını onlarda yaşamağa dəvət edir. R.Nəsbullayev Hacıqabulda orta təhsilini tamamlayır.

Böyük Vətən Müharibəsindən sonra Bakıya gələrək 2 illik hüquq məktəbinə daxil olur. 1947-1949-cu illərdə o, hüquq məktəbini oxuyub bitirir. 1950-ci ildə rayona qayıdıb Ərziküş kənd 7 illik məktəbində müəllim kimi pedaqoji fəaliyyətə başlayır. Sonra da həmin kənd məktəbinin direktoru olur.

Ali təhsil almağın zəruri olduğunu bilirdi. Buna görə o zamankı Azərbaycan Pedaqoji İnstitutuna daxil olur, Azərbaycan dili və ədəbiyyatı ixtisasına yiyələnir, 1957-ci ildə oranı bitirir.

1968-ci ildə Siyəzən şəhər internat məktəbinə direktor vəzifəsinə təyin olunan Rəhim müəllim 17 il bu təhsil ocağına rəhbərlik etmişdir.

1985-ci ilədək... 1985-1995-ci illərdə Siyəzən Broyler - Quşçuluq fabrikində hüquq məsləhətçisi olmuşdur. Dəvəçi rayonunda "Qurucu" (indiki "Sabran") qəzetinin redaktoru olmuş mərhum Yusif İsmayılovla işləmişdir. Eyni zamanda Siyəzən şəhər əyani-qiyabi məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

1995-ci ildə Siyəzən Uşaq Yaradıcılıq Mərkəzinə metodist işinə təyin olunmuş Rəhim müəllim mərkəzin nəzdində ədəbi-diyarşünaslıq dərnəyinin də məşğələlərini aparır.

Veteran maarif xadimi müəllimlərə metodiki yardım göstərmək, dərslərin və məşğələlərin işini düzgün qurmaq, onların müasir həyatla əlaqələndirilməsi prosesinə diqqət yetirir. Dərnək üzvlüyünə qəbul uşaqların maraq dairəsinə, qabiliyyətinə, arzu və istəklərinə uyğun surətdə aparılır. Vaxtaşırı keçirilən sərgilər, şer və rəsm müsabiqələri istedadları aşkara çıxarır, qaliblər mükafatlandırılır. Sonra da ən istedadlılar respublika miqyaslı müsabiqələrə qatılırlar.

Bu qocaman mədəni-maarif xadiminin həyat yolu gənc nəslə örnək nümunəsidir. Onun pedaqogika və hüquq sahələrinə həsr olunan şərəfli ömrü mükafatlarsız qalmamışdır.

1941-1945-ci illərdə arxa cəbhədə "Əməkdə fərqlənməyə görə", "Əmək veteranı" və Lenin yubiley medalları, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin "Fəxri Fərmanı" aldığı mükafatlar qismindəndir.

**Tahir Səlimov**